Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 19 ” fevral tarixli
28 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatların sertifikatlaşdırılması**

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 58.1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatların sertifikatlaşdırılması ilə bağlı tələbləri müəyyən edir.

1.2. Bu Qayda ilə tənzimlənməyən məsələlər Qanuna, “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyaya (bundan sonra - Konvensiya), Konvensiyaya 1 nömrəli Əlavə - “Aviasiya personalının sertifikatlaşdırılması”, 2 nömrəli Əlavə - “Uçuşların qaydaları”, 3 nömrəli Əlavə - “Beynəlxalq aeronaviqasiya üçün meteoroloji xidmətlər”, 4 nömrəli Əlavə - “Aeronaviqasiya xəritələri”, 10 nömrəli Əlavə - “Aeronaviqasiya telerabitəsi”, 11 nömrəli Əlavə - “Hava nəqliyyatı xidmətləri”, 15 nömrəli Əlavə - “Aeronaviqasiya məlumatı xidmətləri” və 19 nömrəli Əlavə - “Uçuşların təhlükəsizliyinin idarə olunması” ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartları və tövsiyə olunan təcrübəsinə, o cümlədən “Doc 10066, aeronaviqasiya məlumatlarının idarə edilməsi (PANS AIM)”, “Doc 4444, hava hərəkətinin idarəedilməsi (PANS ATM)”, “hava naviqasiyası xidmətləri üçün uçuş əməliyyatlarına nəzarət (PANS OPS) (2-ci hissə)” sənədlərinin tələblərinə uyğun olaraq həyata keçirilir.

1.3. Bu Qaydada istifadə olunan anlayışlar Qanunla, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və bu Qaydanın 1.2-ci bəndində nəzərdə tutulmuş digər sənədlərlə müəyyən edilmiş mənaları ifadə edir.

1.4. Bu Qaydanın tələblərinin yerinə yetirilməsinə nəzarət Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra - Agentlik) tərəfindən həyata keçirilir.

## 2. Sertifikatlaşdırma proseduru

2.1. Sertifikatlaşdırma aşağıdakı mərhələlərdən ibarətdir və 90 (doxsan) gün müddətində aparılır:

2.1.1. müraciətdən əvvəlki mərhələ;

2.1.2. müraciət və ilkin qiymətləndirmə;

2.1.3. sənədlərin yoxlanılması;

2.1.4. xidmət təminatçısının vasitələrinin, xidmətlərinin və avadanlıqlarının qiymətləndirilməsi;

2.1.5. uyğunluq sertifikatının verilməsi və ya verilməsindən imtina.

## 3. Müraciətdən əvvəlki mərhələ

3.1. Uyğunluq sertifikatının alınması üçün fiziki və hüquqi şəxs (bundan sonra - ərizəçi) ərizə ilə Agentliyə müraciət edir.

3.2. Müraciətə baxılması üçün ərizəçi (və ya səlahiyyətli nümayəndəsi) və Agentliyin aidiyyəti mütəxəssisi (mütəxəssisləri) arasında Agentlikdə razılaşdırılmış tarixdə və vaxtda görüş təşkil edilir. Görüşün nəticələrinə dair protokol tərtib edilir və bütün iştirakçılar tərəfindən imzalanır.

3.3. Görüş zamanı ərizəçiyə aşağıdakılar barədə məlumat verilir:

3.3.1. ərizəçinin rabitə, naviqasiya və müşahidə xidmətlərinin təminatçılarının istismarına dair riayət etməli olduğu Azərbaycan Respublikasının və beynəlxalq qanunvericilik;

3.3.2. tam və düzgün doldurulmuş ərizənin və sənədlərin Agentliyə təqdim edilməsindən sonra sertifikatlaşdırma prosedurunun həyata keçirilməsi üçün tələb olunan müddət barədə;

3.3.3. Agentliyə təqdim edilməli sənədlər, sənədlərin məzmunu və strukturu;

3.3.4. ərizənin baxılması zamanı həyata keçiriləcək prosedurlar;

3.3.5. dövlət rüsumunun və Qanunun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş xidmət haqqının məbləği.

## 4. Müraciət və ilkin qiymətləndirmə

4.1. Uyğunluq sertifikatının alınması üçün ərizəçinin forması bu Qaydanın 1 nömrəli əlavəsində nəzərdə tutulmuş ərizəsinə aşağıdakı sənədlər əlavə edilir:

4.1.1. ərizəçi hüquqi şəxs olduqda - hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının və nizamnaməsinin surəti;

4.1.2. ərizəçi hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs olduqda onun vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınmasını təsdiq edən sənəd;

4.1.3. dövlət rüsumunun və Qanunun 9.2-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş xidmət haqqının ödənilməsini təsdiq edən sənədlər;

4.1.4. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulduğu halda icazə və ya lisenziyaların surəti.

4.2. Müraciət elektron formada edildikdə ərizə Agentliyin elektron ünvanına və ya rəsmi internet saytı vasitəsilə göndərilir. Agentliyin rəsmi internet saytı vasitəsilə göndərilən müraciətdə ərizəçinin elektron və ya poçt ünvanı göstərilir.

4.3. Agentlik və onun vəzifəli şəxsi tərəfindən ərizəçinin göstərdiyi elektron ünvan vasitəsilə elektron qaydada və ya ərizəçinin xahişi ilə poçt ünvanı vasitəsilə yazılı

cavab verilməklə baxılır. Elektron müraciətdə ərizəçinin elektron ünvanı göstərilmədikdə müraciətə poçt vasitəsilə yazılı cavab verilir.

4.4. Bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş sənədlərdə çatışmazlıqlar mövcud olduqda həmin çatışmazlıqlar aradan qaldırılanadək müraciət baxılmamış saxlanılır və bu barədə Agentlik tərəfindən qərar qəbul edilərək 2 (iki) gün müddətində ərizəçiyə təqdim edilir.

4.5. İlkin qiymətləndirmənin nəticəsindən asılı olaraq Agentlik müraciətin qəbul və ya imtina edilməsi barədə qərar verir. Müraciət Agentlik tərəfindən qəbul edilmədikdə, bu qərarın səbəbləri əsaslandırılmaqla 2 (iki) gün müddətində ərizəçiyə təqdim edilir.

4.6. Müraciət Agentlik tərəfindən qəbul edildiyi halda Agentlik qiymətləndirmənin aparılması üçün Ekspert qrupu yaradır. Ekspert qrupunun tərkibi Agentliyin rəhbəri tərəfindən təsdiq edilir.

4.7. Ekspert qrupu ərizəçinin müraciəti əsasında və ya Agentlik tərəfindən müəyyən edilmiş istiqamətlərdə yoxlamaların aparılması nəzərdə tutulmuş sahələr üzrə mütəxəssislərdən təşkil edilir.

4.8. Ekspert qrupuna Agentlik tərəfindən mülki aviasiya sahəsində fəaliyyət göstərən digər mütəxəssislər cəlb oluna bilərlər.

4.9. Bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş sənədlərə hər hansı əlavə və (və ya) dəyişiklik edildiyi təqdirdə ərizəçi tərəfindən Agentliyə bu barədə dərhal məlumat verilməlidir.

## 5. Sənədlərin yoxlanılması

5.1. Sənədlərin yoxlanılması zamanı Ekspert qrupu tərəfindən aşağıdakılar yoxlanılır:

5.1.1. bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş sənədlərin milli və beynəlxalq qanunvericiliyin, o cümlədən texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu;

5.1.2. ərizəçinin və onun personalının müvafiq sahədə xidmətin göstərilməsi üçün lazımi ixtisasa və təcrübəyə malik olması;

5.1.3. ərizəçinin personalının təsdiq edilmiş vəzifə təlimatlarının olması;

5.1.3. xidmət təminatçısının milli və beynəlxalq qanunvericiliyin, o cümlədən tövsiyə olunan təcrübənin tələblərinə uyğunluğu.

5.2. Sənədlərin yoxlanılmasının nəticələri Ekspert qrupu tərəfindən qənaətbəxş hesab edilmədikdə Agentlik sertifikatlaşdırma prosedurunun dayandırılması və buna səbəb olan uyğunsuzluqlar barədə ərizəçiyə 5 (beş) gün müddətində yazılı məlumat verməlidir.

5.3. Ərizəçi həmin çatışmazlıqları məlumatlandırıldığı vaxtdan ən geci 10 (on) gün müddətində aradan qaldırmalıdır. Bu müddətdə müraciətin baxılmamış saxlanması ilə bağlı Agentlik tərəfindən qərar qəbul edilir və ərizəçiyə təqdim edilir.

5.4. Sənədlərin yoxlanılmasının nəticələri qənaətbəxş hesab edildiyi təqdirdə həmin gündən etibarən 5 (beş) gün müddətində Agentlik tərəfindən keçiriləcək müfəttiş yoxlamasının məqsədləri, tarixləri, dairəsi və yoxlamanı əhatə edəcək sahələr barədə ərizəçiyə məlumat verilir.

## 6. Xidmət təminatçısının vasitələrinin, xidmətlərinin və avadanlıqlarının qiymətləndirilməsi

6.1. Xidmət təminatçısının vasitələrinin xidmətlərinin və avadanlıqlarının qiymətləndirilməsi prosesi yoxlamadan əvvəlki və sonrakı toplantının (brifinqin) keçirilməsi, yoxlamanın keçirilməsi və onun nəticələrinə dair yekun nəticələrin hazırlanması, mövcud olduğu təqdirdə uyğunsuzluqların aradan qaldırılmasına dair tədbirlər planının (bundan sonra – Tədbirlər planı) təqdim edilməsi mərhələlərindən ibarətdir.

6.2. Yoxlamanın həyata keçirilməsindən əvvəl Ekspert qrupu və ərizəçi arasında yoxlama müddətində diqqət yetiriləcək məsələlərə və prosedurlara dair toplantı (brifinq) keçirilir. Bu toplantıda (brifinqdə) iştirak edən ərizəçinin heyəti yoxlamanın prosedurları, kriteriyaları, gözlənilən nəticələr və mütəxəssislərin yoxlama həyata keçirəcəyi ərazilər və predmetlər üzrə foto və video çəkilişlər aparacağına dair məlumat alır.

6.3. Agentlik xidmət təminatçısının vasitələrinin, xidmətlərinin və avadanlıqlarının yoxlanılması və ya sınaqdan keçirilməsi zamanı ərizəçi tərəfindən təqdim edilmiş istənilən məlumatın əsaslandırılmasını tələb edə bilər.

6.4. Yoxlama yekunlaşdıqdan sonra Ekspert qrupu tərəfindən yoxlamanın nəticələri 5 (beş) gün müddətində Agentliyin rəhbərinə təqdim edilir.

## 7. Uyğunluq sertifikatının verilməsi və ya verilməsindən imtina

7.1. Ekspert qrupu tərəfindən təqdim edilən yoxlama nəticələri əsasında Agentlik tərəfindən bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş uyğunluq sertifikatının verilməsi və ya verilməsindən imtina barədə qərar qəbul edilir.

7.2. Aşağıdakı əsaslardan biri nəzərə alınmaqla sertifikatlaşdırma prosedurunun yekun nəticələri Agentlik tərəfindən 5 (beş) gün müddətində rəsmiləşdirilir:

7.2.1. yoxlama zamanı uçuşların təhlükəsizliyinə və aviasiya təhlükəsizliyinə ciddi təhdid yaradan çatışmazlıqların aradan qaldırılmaması ilə bağlı uyğunluq sertifikatının verilməsindən imtina;

7.2.2. yoxlama zamanı aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması və ya yoxlama zamanı çatışmazlıqlar olmadığı təqdirdə uyğunluq sertifikatının verilməsi;

7.2.3. yoxlama zamanı uçuşların təhlükəsizliyinə və aviasiya təhlükəsizliyinə təhdid yaratmayan çatışmazlıqlar olduğu təqdirdə məhdudiyyətlər tətbiq etmək şərtilə uyğunluq sertifikatının verilməsi.

7.3. Xidmət təminatçıları tərəfindən göstərilən xidmətlərin dairəsi bu Qaydanın 3 nömrəli əlavəsindəki uyğunluq sertifikatının əlavəsində qeyd olunur. Hər bir hava limanına (aeroporta) münasibətdə məlumatlar ayrıca olaraq bu Qaydanın 3 nömrəli əlavəsində qeyd olunmuş formada doldurulur.

7.4. Bu Qaydanın 7.2.1-ci yarımbəndinə əsasən yoxlama zamanı aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması barədə məlumatı ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir. Ərizəçi məlumat aldığı gündən 10 (on) gün müddətində çatışmazlıqların aradan qaldırılması ilə bağlı Tədbirlər planını hazırlamalı və qəbul edilməsi üçün Agentliyə təqdim etməlidir.

7.5. Tədbirlər planında yoxlama zamanı aşkar edilmiş uyğunsuzluqlar sadalanmalı, ərizəçi tərəfindən hər bir uyğunsuzluğa münasibətdə aradan qaldırılma müddətləri və məsul şəxslər müəyyən edilməlidir.

7.6. Təqdim edilmiş Tədbirlər planı Ekspert qrupu tərəfindən qiymətləndirilir və onun qəbul edilib-edilməməsi barədə 5 (beş) gün müddətində Agentliyin rəhbərliyinə məlumat verilir.

7.7. Tədbirlər planı Ekspert qrupu tərəfindən qəbul edilmədiyi zaman Agentlik qəbul edilməməsinin səbəbləri barədə ərizəçiyə 5 (beş) gün müddətində bu barədə rəsmi məlumat verir. Ərizəçi tərəfindən 5 (beş) gün müddətindəTədbirlər planında olan çatışmazlıqlar aradan qaldırılır və yenidən Agentliyə göndərilir.

7.8. Ekspert qrupu qəbul edilmiş Tədbirlər planına əsasən uyğunsuzluqların aradan qaldırılmasına nəzarət etməli və yoxlamalar keçirməli, yoxlamaların nəticələri barədə Agentliyə mütəmadi olaraq məlumat verilməlidir.

7.9. Bu Qaydanın 7.4-cü bəndinə əsasən ərizəçi tərəfindən tərtib edilən Tədbirlər planının Agentliyə təqdim edilməsindən və bu Tədbirlər planının Ekspert qrupu tərəfindən qəbul olunmasından sonra uyğunluq sertifikatı və onun əlavələri rəsmiləşdirilir. Rəsmiləşdirmə zamanı məhdudiyyətlərlə bağlı Ekspert qrupunun rəyi nəzərə alınmalıdır.

7.10. Qiymətləndirilmənin yekun nəticəsi qənaətbəxş hesab edilmədiyi təqdirdə Agentlik tərəfindən səbəbləri qeyd edilməklə və əsaslandırılmaqla uyğunluq sertifikatının verilməsindən imtina ilə bağlı qərar qəbul edilir və bu barədə 10 (on) gün müddətində ərizəçiyə yazılı məlumat verilir.

7.11. Xidmət təminatçısına verilmiş uyğunluq sertifikatının qüvvədəolma müddəti 3 (üç) ildir.

## 8. Uyğunluq sertifikatının dublikatı

8.1. Uyğunluq sertifikatı yararsız vəziyyətə düşdükdə və ya itirildikdə uyğunluq sertifikatının sahibinin müraciəti əsasında eyni hüquqi qüvvəyə malik dublikatı verilir.

8.2. Dublikatın qüvvədəolma müddəti uyğunluq sertifikatının qüvvədəolma müddəti ilə məhdudlaşdırılır.

8.3. Uyğunluq sertifikatının dublikatının yuxarı sağ hissəsində Azərbaycan və ingilis dillərində “Dublikat” sözü və verilmə tarixi qeyd edilir.

8.4. Dublikat Agentliyin rəhbəri tərəfindən imzalanır, aşağı hissəsində onu imzalamış şəxsin soyadı, adı və vəzifəsi qeyd olunur və Agentliyin möhürü ilə təsdiqlənir.

## 9. Uyğunluq sertifikatında dəyişikliklərin edilməsi

9.1. Uyğunluq sertifikatında dəyişikliklərin edilməsi üçün Agentliyə bu Qaydanın 1 nömrəli əlavəsində nəzərdə tutulmuş ərizə forması və ediləcək dəyişikliklərlə bağlı sənədlər təqdim edilir.

9.2. Uyğunluq sertifikatında dəyişikliklərin edilməsi prosesi bu Qaydaya uyğun həyata keçirilir.

9.3. Agentlik xidmət təminatçısının fəaliyyət istiqamətində dəyişikliklərin və ya sertifikat cədvəlinə əlavələrin edilməsi ilə bağlı müraciəti olduqda uyğunluq sertifikatında dəyişikliklər edə bilər.

9.4. Agentlik aşağıdakı hallarda uyğunluq sertifikatında dəyişikliklər edə bilər:

9.4.1. dəyişikliklər xidmət təminatçısının uyğunluq sertifikatında qeyd edilmiş fəaliyyət sahələri üzrə işlərin təşkilinə və təmin edilməsinə təsir etmədikdə;

9.4.2. xidmət təminatçısının uyğunluq sertifikatının rəsmiləşdirilməsi zamanı səhv aşkar edildikdə;

9.4.3. xidmət təminatçısı tərəfindən uyğunluq sertifikatında düzəlişlərin edilməsi ilə bağlı müraciət edildikdə.

9.5. Ərizəçi tərəfindən təqdim edilmiş müraciətə bu Qaydanın 9.7-ci bəndində nəzərdə tutulmuş qaydada baxılır.

9.6. Uyğunluq sertifikatında edilmiş dəyişikliklər Agentlik tərəfindən rəsmiləşdirilməklə yenisi ilə əvəz edilir və əvvəlki uyğunluq sertifikatı Agentliyə qaytarılır. Yeni uyğunluq sertifikatının qüvvədəolma müddəti əvvəlki uyğunluq sertifikatının qüvvədəolma müddəti ilə məhdudlaşır.

9.7. Agentlik ərizəçi tərəfindən təqdim edilmiş müraciətə 30 (otuz) gün müddətində baxır. Ərizəyə baxıldıqdan və yoxlama həyata keçirildikdən sonra təyin edilmiş Ekspert qrupunun rəyi əsasında Agentliyin rəhbəri uyğunluq sertifikatında dəyişikliklərin edilməsi ilə bağlı qərar qəbul edir.

9.8. Uyğunluq sertifikatında edilmiş dəyişikliklər Agentlik tərəfindən rəsmiləşdirilməklə yenisi ilə əvəz edilir və əvvəlki sertifikat Agentliyə qaytarılır.

9.9. Müvafiq dəyişikliklər edilmiş uyğunluq sertifikatının qüvvəsi mövcud uyğunluq sertifikatının qüvvədəolma müddəti ilə məhdudlaşır.

## 10. Uyğunluq sertifikatının qüvvədəolma müddətinin uzadılması

10.1. Uyğunluq sertifikatının qüvvədəolma müddətinin uzadılması üçün xidmət təminatçısı tərəfindən uyğunluq sertifikatının qüvvədəolma müddətinin bitməsinə ən azı 60 (altmış) gün qalmış, lakin 90 (doxsan) gündən çox olmamaq şərtilə bu Qaydanın 1 nömrəli əlavəsində göstərilən ərizə forması doldurulur və Agentliyə müraciət edilir. Uyğunluq sertifikatının qüvvədəolma müddəti bitdikdən sonra xidmət təminatçısı tərəfindən Agentliyə müraciət ediləcəyi təqdirdə onun ərizəsi uyğunluq sertifikatının qüvvədəolma müddəti bitdikdən sonra edilən müraciət ilkin müraciət kimi nəzərdə tutulur və yeni uyğunluq sertifikatı əldə edilənədək xidmət təminatçısı fəaliyət göstərə bilməz.

10.2. Uyğunluq sertifikatının qüvvədəolma müddətinin uzadılması proseduru bu Qaydanın 4-cü hissəsi nəzərə alınmaqla həyata keçirilir.

10.3. Uyğunluq sertifikatının qüvvədəolma müddətinin uzadılması barədə qərar Agentlik tərəfindən verilir və uyğunluq sertifikatı yeni tarixlə rəsmiləşdirilir.

## 11. Xidmət təminatçısının müraciəti əsasında uyğunluq sertifikatının qüvvəsinin dayandırılması və ya ləğv edilməsi

11.1. Xidmət təminatçısı uyğunluq sertifikatının qüvvəsini dayandırmaq və ya ləğv etmək məqsədilə ən azı 6 (altı) ay əvvəl Agentliyə ləğvetmənin tarixi və ya

uyğunluq sertifikatının qüvvəsinin dayandırılmasının müddətinə dair bütün təfsilatlar əks olunmuş müraciət etməlidir. Müraciətə 15 (on beş) gün, əlavə öyrənilmə və yoxlanılma tələb edildiyi təqdirdə isə 30 (otuz) gün müddətində baxılır.

11.2. Qüvvəsi dayandırılmış uyğunluq sertifikatının qüvvəsinin bərpa edilməsi üçün xidmət təminatçısı ərizə ilə Agentliyə müraciət etməlidir.

11.3. Uyğunluq sertifikatı ləğv edilmiş xidmət təminatçısına münasibətdə sertifikatlaşdırma proseduru bu Qaydanın 4-cü hissəsi nəzərə alınmaqla ilkin uyğunluq sertifikatının verilməsi prosesinə uyğun həyata keçirilir.

11.4. Uyğunluq sertifikatının qüvvəsi dayandırıldıqda və ya ləğv edildikdə ərizəçi ləğv edilmiş uyğunluq sertifikatını 3 (üç) gün müddətində Agentliyə qaytarmalıdır.

## 12. Pozuntulara görə uyğunluq sertifikatının qüvvəsinin dayandırılması və ya ləğv edilməsi

12.1. Bu Qaydanın müddəalarının pozulması halı aşkar edildikdə Agentlik tərəfindən uyğunluq sertifikatının qüvvəsi dayandırıla və ya ləğv edilə bilər.

12.2. Yoxlamalar zamanı aşkar olunmuş pozuntunun dərəcəsindən asılı olaraq uyğunluq sertifikatının qüvvədəolma müddəti 6 (altı) aydan 1 (bir) ilədək dayandırıla bilər. Agentliyin dayandırılmaya səbəb olmuş pozuntu hallarının aradan qaldırılmasına dair göstərişləri yerinə yetirilmədikdə uyğunluq sertifikatı Agentliyin qərarına əsasən ləğv edilir.

12.3. Agentlik uyğunluq sertifikatının qüvvəsini dayandırmazdan və ya onu ləğv etməzdən əvvəl uyğunluq sertifikatına malik olan xidmət təminatçısına əsasları göstərilməklə uyğunluq sertifikatının qüvvəsinin dayandırılması və ya ləğv edilməsi barədə bildiriş göndərir.

12.4. Uyğunluq sertifikatının qüvvəsinin dayandırılması barədə qərar qəbul edildiyi təqdirdə Agentlik tərəfindən xidmət təminatçısına bildiriş göndərilərək dayandırma səbəblərinin aradan qaldırılması üçün müəyyən müddət verilir. Həmin müddətdə xidmət təminatçısı tərəfindən mövcud qüsurlar aradan qaldırılmadığı təqdirdə uyğunluq sertifikatı Agentlik tərəfindən ləğv olunur.

12.5. Uyğunluq sertifikatının qüvvəsinin dayandırılması barədə bildirişini aldığı andan etibarən xidmət təminatçısı aşkar edilmiş pozuntuların aradan qaldırılması üçün lazımi tədbirlər həyata keçirməlidir, bu barədə Agentliyə və xidmət göstərdiyi subyektlərə məlumat verməlidir.

12.6. Qüvvəsi müvəqqəti dayandırılan və ya ləğv edilən uyğunluq sertifikatı 3 (üç) gün müddətində Agentliyə təhvil verilməlidir.

12.7. Qüvvəsi müvəqqəti dayandırılmış uyğunluq sertifikatının etibarlılığı aşkar edilmiş pozuntuların aradan qaldırılmasından sonra bərpa edilir.

12.8. Uyğunluq sertifikatı ləğv edilmiş xidmət təminatçısı bu Qaydanın 4-cü hissəsinə uyğun olaraq, uyğunluq sertifikatının əldə edilməsi üçün ləğvetmə tarixindən 6 (altı) ay sonra yenidən müraciət etmək hüququna malikdir.

“Hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatların sertifikatlaşdırılması Qaydası”na

**1 nömrəli əlavə**

**Hava hərəkəti xidmət təminatçılarının sertifikatlaşdırıması üçün ƏRİZƏ FORMASI**

________________________________________
(soyadı, adı, atasının və ünvanı)

________________________________________

________________________________________

İlkin sertifikatlaşdırma üçün müraciət □
Təkrar sertifikatlaşdırma üçün müraciət □
Dəyişiklik / düzəliş üçün müraciət □
(müvafiq xana işarələnməli)

| |
|---|
| **1. Ərizəçinin qeydiyyatdan keçmiş adı** |
| |
| |
| **2. Ticarət adı (əgər fərqlidirsə)** |
| |
| |
| **3. Ünvanı** |
| |
| |
| **4. Əlaqə məlumatları** |
| |

| | |
|---|---|
| Ad | |
| | |
| Telefon | |
| | |
| Faks | |
| | |
| | |

**5. “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına**

| |
|---|
| **uyğun olaraq sertifikatlaşdırılması tələb olunan xidmətlərin həcmi** |
| |
| □ ATS |
| □ SMS |
| □ CNS □ kənar □ sahib |
| □ AIS □ kənar □ sahib |
| □ MET □ kənar □ sahib |
| □FPD □ kənar □ sahib |
| □AC □ kənar □ sahib |
| **6. Səlahiyyətli şəxsin adı və soyadı** |
| |
| **7. Səlahiyyətli şəxsin imzası** |
| |
| **8. Yer və tarix** |
| |

| | | |
|---|---|---|
| (Yer) | | (Tarix) |
| | | |

| |
|---|
| **9. Təşkilat ekspozisiyası (tələb olunduqda işarələnməli)** |
| |
| □ **İlkin sertifikatlaşdırma üçün müraciət** |
| |
| Təşkilatın ekspozisiyasının üç nüsxəsi bu ərizə forması ilə birlikdə göndərilir |
| |
| □ **Dəyişikliklər üçün müraciət** |
| |
| Əvvəlki təşkilat ekspozisiyasında dəyişdirilmiş səhifələrin üç nüsxəsi bu ərizə forması ilə birlikdə göndərilir |
| |
| **10. Anketlər (tələb olunduqda işarələnməli)** |
| |
| □ Agentliyin sertifikatlaşdırma prosedurları ilə müəyyən edilmiş sorğular bu ərizə forması ilə birlikdə göndərilir |
| |
| (ilkin sertifikatlaşdırma zamanı Agentlik tərəfindən tələb olunan yerdə tətbiq edilir) |
| |

“Hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatların sertifikatlaşdırılması Qaydası”na

**2 nömrəli əlavə**

**Uyğunluq sertifikatının nümunəsi**

**AZƏRBAYCAN RESPUBLİKASI / REPUBLIC OF AZERBAIJAN**

**RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ**
**MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT**

**DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ**
**STATE CIVIL AVIATION AGENCY**

**UYĞUNLUQ SERTİFİKATI / CERTIFICATE OF CONFORMITY**

**№_______/ _______20____**

Aeronaviqasiya xidmətləri göstərən şəxslərin sertifikatlaşdırılması “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, hava hərəkəti xidmət təminatçılarına dair ümumi tələbləri müəyyən edən qüvvədə olan müddətə və bu uyğunluq sertifikatında göstərilən şərtlərə uyğun olaraq Dövlət Mülki Aviasiya Agentliyi bununla təsdiq edir:

*Pursuant to the Law of the Republic of Azerbaijan on Aviation on the certification of air navigation service providers laying down common requirements of air navigation services, for the time being in force and subject to the conditions specified in this certificate, the State Civil Aviation Agency hereby certifies:*

**(Müraciət edən təşkilatın adı / *Applicant Organization Name*)**

Hava hərəkəti xidmət təminatçısı kimi əlavə edilmiş sertifikat cədvəlində sadalanan xidmətlərə tətbiq edilənlər beynəlxalq standartlara uyğundur və hava hərəkəti xidmət təminatçısı onları yerinə yetirmək səlahiyyətinə malikdir.

*The services listed in the attached certificate table as an air navigation service provider comply with international standards and the air navigation service provider is authorized to perform them.*

**Ümumi şərtlər / *General Conditions*:**

Bu Sertifikat təşkilatın ekspozisiyasında göstərilən prosedurlara və digər tədbirlərə uyğunluğu tələb edir.

Bu Sertifikat sertifikat cədvəlinə daxil edilmiş xidmətlər üçün müəyyən edilmiş xüsusi şərtlərə uyğun olduğu müddətdə etibarlıdır.

Agentlik tərəfindən istənilən vaxt yoxlana bilən yuxarıda göstərilən şərtlərə davamlı uyğunluq şərtilə bu Sertifikat _______ tarixinədək qüvvədə qalır və təşkilatın tələbi ilə yenilənə bilər.

*This Certificate requires compliance with the procedures and other arrangements specified in the organization exposition.*

*This Certificate is valid as long as it complies with the specific conditions set out for the services included in the certificate schedule.*

*Subject to continuous compliance with the foregoing conditions, which may be verified by the Agency at any time, this Certificate shall remain valid until _______ and be renewed on request by the organization*

M.Y. / *S.P.*

________________________________________
(səlahiyyətli şəxsin soyadı, adı, vəzifəsi və imzası/
name, surname, position and signature of the authorized person)

Verilmə tarixi / Effective as of:
Etibarlıdır / Valid till:

“Hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatların sertifikatlaşdırılması Qaydası”na

**3 nömrəli əlavə**

## Sertifikat cədvəli

**Təşkilatın adı:**
**Hava limanının (aeroportun) adı:**
**İstinad nömrəsi:**

| Xidmətlər | Təqdim ediləcək xidmətin növü | Təqdim ediləcək xidmətin bir hissəsi | Ərizəçinin təklif etdiyi şərtlər |
|---|---|---|---|
| **Hava Hərəkəti Xidmətləri (ATS)** | **hava hərəkətinin idarə edilməsi (HHİE)** | **sahə dispetçer xidməti** | □ |
| | | **yaxınlaşma dispetçer xidməti** | □ |
| | | **aerodrom dispetçer xidməti** | □ |
| | **uçuş informasiya xidməti** | | □ |
| | **qəza xəbərdarlığı** | | □ |
| | **hava hərəkətinə məsləhət xidməti** | | □ |
| **Rabitə, naviqasiya və müşahidəetmə (CNS)** | **rabitə** | | □ |
| | **naviqasiya** | | □ |
| | **müşahidəetmə** | | □ |
| **Aeronaviqasiya məlumat xidməti** | | | □ |
| **Meteoroloji xidmətlər** | | | □ |
| **Cihazlar üzrə uçuş prosedur dizaynı** | | | □ |
| **Aeronaviqasiya xəritələri** | | | □ |